# Avropa İttifaqına sədrlik edəcək Malta Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir



Aprelin 29-da Milli Məclisin Sədri Oqtay Əsədov ölkəmizdə rəsmi səfərdə olan Maltanın xarici işlər naziri Corc Vellanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Ölkələrimiz arasında mövcud olan ikitərəfli münasibətlərdən söz açan Oqtay Əsədov əmin olduğunu bildirib ki, bu səfər əlaqələrin daha da inkişafına təkan verəcək. Milli Məclisin Sədri vurğulayıb ki, iki ölkə arasında ikitərəfli sənədlərin imzalanmasına da ehtiyac var. İndiyə kimi ölkələrimiz arasında iki sənəd imzalanıb. İqtisadi əlaqələr isə yüksələn xətlə inkişaf etməkdədir. Ticarət dövriyyəsi az olsa da, bunun artırılması üçün real imkanlar mövcuddur və qarşılıqlı səfərlər ticarət dövriyyəsini daha da artıracaq.

Maltanın Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlıq prosesinin fəal iştirakçısı olduğunu vurğulayan Oqtay Əsədov bu səfərin mövcud əməkdaşlıq formatının möhkəmləndirilməsinə öz töhfəsini verəcəyini söyləyib.

Milli Məclisin Sədri görüşdə qonaqlara Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və aprel ayında cəbhə xəttində baş verən erməni təxribatı barədə geniş məlumat verib. Bildirib ki, illərdir regionda yaranmış durumla bağlı Azərbaycan rəsmilərinin söylədiyi həqiqətlərə dünya dövlətlərinin biganə münasibət göstərməsi vəziyyəti daha da mürəkkəbləşdirib. Aprel ayında böyük müharibənin başlama ehtimalı olub. Ancaq Azərbaycan yenə də danışıqlar yolu ilə məsələnin həllinə razılıq verib. Buna baxmayaraq, Ermənistan öz təxribatçı hərəkətlərini davam etdirir, beynəlxalq təşkilatların bəyanat və qətnamələrinə məhəl qoymur.

Maltanın Azərbaycanın suverenliyini, ərazi bütövlüyünü tanıdığını söyləyən Oqtay Əsədov qeyd edib ki, bu ölkə 2017-ci ildə Avropa İttifaqına sədrlik edəcək. Odur ki, Malta münaqişənin həll olunması istiqamətində öz müsbət töhfəsini verə bilər.

Maltanın ölkəmizlə əlaqələri daha da genişləndirməkdə maraqlı olduğunu deyən Corc Vella isə ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsi üçün yaxşı potensialın olduğunu söyləyib. Qonaq qeyd edib ki, Malta Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Avropa İttifaqının yürütdüyü siyasəti dəstəkləyir və onun hərbi yolla deyil, sülhlə həll olunmasına tərəfdardır. Corc Vellanın fikrincə, danışıqlar ATƏT-in Minsk qrupu həmsədrlərinin vasitəçiliyi və Madrid prinsiplərinin şərtlərinə əməl olunması ilə davam etdirilməlidir.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

***Rəşad BAXŞƏLİYEV,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***